AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ



# "DOING BUSINESS - 2020" İSLAHATLARINA DAİR XÜSUSİ BURAXILIŞ

www.iqtisadiislahat.org www.ereforms.org www.ecoreform.az

# MÜNDƏRİCAT


1 Biznesə başlama ..... 3

2 Tikinti üçün icazələrin alınması ..... 6

3 Elektrik təchizatı şəbəkələrinə qoşulma ..... 9

4 Əmlakın qeydiyyatı ..... 12

5 Kreditlərin alınması ..... 15

6 Kiçik investorların maraqlarının qorunması ..... 18

7 Vergilərin ödənilməsi ..... 20

8 Xarici ticarətin aparılması ..... 23

9 Müqavilələrin icrasının təmin edilməsi ..... 26

10 Müflisləşmənin həlli ..... 29

11 Dövlət satınalmaları sahəsində aparılan islahatlar ..... 32

# "DÜNYA BANKI" TƏRƏFİNDƏN HAZIRLANAN "DOING BUSINESS 2019" HESABATINDA AZƏRBAYCAN 32 PİLLƏ İRƏLİLƏYƏRƏK 190 ÖLKƏ ARASINDA 57-Cİ PİLLƏDƏN 25-Cİ YERƏ YÜKSƏLMİŞDİR

| 2018 | | 2019 |
|---|---|---|
| 57 | | 25 |
| 18 | BİZNESƏ BAŞLAMA | 9 |
| 161 | TİKİNTİ ÜÇÜN İCAZƏLƏRİN ALINMASI | 61 |
| 102 | ELEKTRİK TƏCHİZATI ŞƏBƏKƏLƏRİNƏ QOŞULMA | 74 |
| 21 | ƏMLAKIN QEYDİYYATI | 17 |
| 122 | KREDİTLƏRİN ALINMASI | 22 |
| 10 | KİÇİK İNVESTORLARIN MARAQLARININ QORUNMASI | 2 |
| 35 | VERGİLƏRİN ÖDƏNİLMƏSİ | 28 |
| 83 | XARİCİ TİCARƏTİN APARILMASI | 84 |
| 38 | MÜQAVİLƏLƏRİN İCRASININ TƏMİN EDİLMƏSİ | 40 |
| 47 | MÜFLİSLƏŞMƏNİN HƏLLİ | 45 |



# BİZNESƏ BAŞLAMA

Mövcud reytinq: 190 ölkə arasında **9-cu yer**

“Doing Business” üzrə bal: **96.14**

# BİZNESƏ BAŞLAMA

**PROSEDURLAR**



**1**

Elektron imza, ASAN İmza sim kart vasitəsilə aktivləşdirilə bilər.



**2**

Online qeydiyyat üçün elektron imza olmalıdır və nizamnamə onlayn olaraq təqdim təsdiq edilir.

**3**

Qeydiyyat tamamlandıqdan sonra işçilər dərhal işə başlaya bilərlər.



**ƏVVƏL**

**Onlayn qeydiyyat üçün elektron imza əldə edilməlidir**

**Onlayn qeydiyyat (VÖEN və ƏDV qeydiyyatı)**

**İşçilərin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində qeydiyyatdan keçirilməsi**

**İNDİ**



**1**

**ASAN İmza** onlayn qeydiyyat üçün **tələb olunmur**.



Vergilər Nazirliyinin saytında **FİN kod** daxil edilməklə onlayn qeydiyyat vahid platformada aparılacaqdır.

Həmçinin işə götürüləcək işçilər barədə məlumatlar **onlayn qeydiyyat ərizəsinə** daxil edilir.



# BİZNESƏ BAŞLAMA

| | Prosedurların sayı | Günlərin sayı | Xərc |
|---|---|---|---|
| ƏVVƏL | 3 | 3,5 | 90 AZN |
| İNDİ | 1 | 0,5 | 0 AZN |

## İSLAHATIN NƏTİCƏSİ

**1**

Hüquqi şəxsin elektron qeydiyyatı məqsədilə ilk növbədə "ASAN imza" sertifikatının əldə olunması proseduru ləğv olunmuşdur.

**2**

Hüquqi şəxsin fəaliyyətə başlaması üçün işəgötürən tərəfindən əmək müqaviləsi bildirişlərinin əlavə olaraq “Elektron hökumət” portalı üzərindən qeydiyyata alınması proseduru aradan qaldırılmışdır.

**3**

Hüquqi şəxsin qeydiyyatı prosedurlarının sayı 3-dən 1-ə, müddəti 3,5 gündən 0,5 günə endirilmiş, ilkin qeydiyyatla bağlı 90 manat təşkil edən xərclər ləğv edilərək prosedurun tam ödənişsiz olması müəyyən edilmişdir.

**Hüquqi əsası**:

- “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1447-VQD nömrəli Qanunu;
- “Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1448-VQD nömrəli Qanunu;
- “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1446-VQD nömrəli Qanunu.



# TİKİNTİ ÜÇÜN İCAZƏLƏRİN ALINMASI

Mövcud reytinq: 190 ölkə arasında **61-ci yer**

“Doing Business” üzrə bal: **73.11**



# TİKİNTİ ÜÇÜN İCAZƏLƏRİN ALINMASI

## TİKİNTİ LAYİHƏSİ EKSPERTİZA TƏLƏB OLUNMAYAN TİKİNTİ OBYEKTLƏRİ ÜZRƏ

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| Layihələndirmə (mühəndis-axtarış işləri daxil) | **Elektron müraciət sistemi** əsasında icazə verən orqana tikintiyə icazə üçün müraciət və tikintiyə icazənin əldə olunması | Özül quraşdırma işlərinin yoxlanılması (Fövqəladə Hallar Nazirliyi) | Su xəttinə qoşulma ("Azərsu" ASC) | Yekun yoxlama və istismara hazırlıq aktının verilməsi (Fövqəladə Hallar Nazirliyi) | **Elektron müraciət sistemi** əsasında qanunvericiliyə əsasən müvafiq sənədlər ilə istismar üçün müraciət olunması və istismara icazənin əldə edilməsi (İcazə verən orqan) | Daşınmaz Əmlakın Dövlət Reyestrində qeydiyyat |
| | **15** iş günü | **1** gün | **7** gün | **1** gün | **10** gün | **4** gün |

| | | | | |
|---|---|---|---|---|
| İcazə verən orqan tərəfindən təqdim edilmiş sənədlərin tamlığı yoxlanılır. | Tikinti layihəsinin şəhərsalma sənədlərinə uyğunluğu barədə Komitə tərəfindən rəy verilir. | Aidiyyəti qurumlardan rəylər əldə edilir. | "ASAN Kommunal" və ya "ASAN Xidmət" və ya KOB evlərindən və ya birbaşa təchizat müəssisələrindən texniki şərtlər əldə olunur. | Tikintiyə icazə əldə olunur. |
| **2** iş günü | **5** iş günü | **5** gün | **10** gün | **1** iş günü |

# TİKİNTİ ÜÇÜN İCAZƏLƏRİN ALINMASI

## TİKİNTİ LAYİHƏSİ EKSPERTİZA TƏLƏB OLUNMAYAN TİKİNTİ OBYEKTLƏRİ ÜZRƏ

| | Prosedurların sayı | Günlərin sayı | Xərc |
|---|---|---|---|
| ƏVVƏL | 18 | 116 | 6566 AZN |
| İNDİ | 7 | 38 | 1595 AZN |

## İSLAHATIN NƏTİCƏSİ

1. Tikintiyə icazə ilə bağlı bütün texniki şərtlər və rəylər sahibkarın iştirakı olmadan elektron qaydada əldə olunur.

2. Tikinti obyektinin istismarına icazə müddəti 20 gündən 10 günə endirilmişdir.

3. Tikintiyə və tikinti obyektinin istismarına icazə tam ödənişsiz aparılır.

4. Tikinti və istismar üçün icazələrin alınması "Bir Pəncərə" prinsipi əsasında elektron şəkildə Azərbaycan Respublikası Şəhərsalma və arxitektura Komitəsinin rəsmi internet saytı üzərindən həyata keçirilə bilər.

**www. birpencere.arxkom.gov.az/az**

**Hüquqi əsası**:

- "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1451-VQD nömrəli Qanunu;
- "Bəzi tikinti obyektlərinə tikintiyə icazə və tikinti obyektinin istismarına icazə verilməsinin sadələşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 460 nömrəli Fərmanı.



# ELEKTRİK TƏCHİZATI ŞƏBƏKƏLƏRİNƏ QOŞULMA

Mövcud reytinq: 190 ölkə arasında **74-cü yer**

“Doing Business” üzrə bal: **77.27**



# ELEKTRİK TƏCHİZATI ŞƏBƏKƏLƏRİNƏ QOŞULMA

## PROSEDUR 1

**Elektrik təchizatı şəbəkələrinə qoşulma ilə bağlı müraciət edilir - 10 gün**



- Sahibkar KOB evləri, "ASAN Kommunal" və "ASAN Xidmət" mərkəzlərinə və ya onlayn qaydada "Bir Pəncərə" prinsipi əsasında elektrik təchizatı şəbəkəsinə qoşulma ilə bağlı müraciət edir;
- Müraciət əsasında sahibkar tərəfindən yerində ödəniş edilir.

"Azərişıq" ASC-nin "Bir Pəncərə"dəki əməkdaşı "Elektron Xəritə" üzərindən obyektin yerini, ona ən yaxın məsafədə olan güc mərkəzini müəyyən edir və çıxarışı ASAN Portala yerləşdirir.

"Texniki Şura"nın aidiyyəti qurumlarla elektrik xəttinin trassasını razılaşdırır və razılaşma ilə bağlı digər aidiyyəti qurumlara məktub göndərir.

Elektrik təchizatı layihəsi çıxarılır və smeta hazırlanır.

## PROSEDUR 2

**Elektrik təchizatı şəbəkəsinə qoşulma ilə bağlı tikinti quraşdırma işləri başlanılır - 10 gün**



Tikinti quraşdırma işləri həyata keçirilir.

- "Sənədlər Paketi": Texniki şərtlər, layihə-smeta sənədləri, qoşulma aktı, alqı-satqı müqaviləsi sahibkara təqdim edilir;
- ETM ilə sahibkar arasında qoşulma aktı və alqı-satqı müqaviləsi imzalanır.

Gərginlik verilir.

# ELEKTRİK TƏCHİZATI ŞƏBƏKƏLƏRİNƏ QOŞULMA

| | Prosedurların sayı | Günlərin sayı |
|---|---|---|
| ƏVVƏL | 7 | 41 |
| İNDİ | 2 | 20 |

## İSLAHATIN NƏTİCƏSİ

**1**

Sahibkarların şəbəkəyə qoşulma ilə əlaqədar müraciət imkanları artırılmışdır. Sahibkarlar "ASAN Kommunal" mərkəzləri ilə yanaşı, "KOB evləri"ndə də şəbəkəyə qoşulmaq üçün müraciət edə bilərlər.

Eyni zamanda, elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə elektron müraciət daha da təkmilləşdirilmişdir.

**2**

Sahibkarlarla təmas minimuma endirilmişdir. Şəbəkəyə qoşulma ilə əlaqədar sahibkarın iştirakı bir dəfə müraciət zamanı, bir dəfə də yekunda tikinti obyektinə elektrik enerjisinin verilməsi zamanı tələb olunur.

**3**

"Elektron Xəritə" vasitəsi ilə sahibkarın obyektinin, güc mərkəzlərinin yeri və həmin mərkəzlərdə sərbəst güc səviyyəsi əraziyə baxış olmadan müəyyən olunur.

**Hüquqi əsası**:

- Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 dekabr tarixli 437 nömrəli Fərmanı ilə "Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanında dəyişiklik edilmişdir.



# ƏMLAKIN QEYDİYYATI

Mövcud reytinq: 190 ölkə arasında **17-ci yer**
"Doing Business" üzrə bal: **84.63**



# ƏMLAKIN QEYDİYYATI

## ƏVVƏL

**1** Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən (DƏDRX) **"Yüklülük (Məhdudiyyət)" haqqında arayış əldə olunurdu.**

**2** **Alqı-satqı aktı bağlanırdı**

**3** Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən **kağız çıxarış** əldə olunurdu.



## İNDİ

Notariusa müraciət olunur.

**1** Notarius onlayn qaydada DƏDRX-də **"Yüklülük (Məhdudiyyət)" haqqında arayışı əldə edir**.

Alqı-satqı əsasında əmlak üzərində alıcının hüququ dərhal dövlət qeydiyyatına alınır və **elektron çıxarış** onlayn qaydada göndərilir.



**1 gün**

# ƏMLAKIN QEYDİYYATI

| | | |
|---|---|---|
| ƏVVƏL | Prosedurların sayı 3 | Günlərin sayı 5,5 |
| İNDİ | Prosedurların sayı 1 | Günlərin sayı 1 |

## İSLAHATIN NƏTİCƏSİ

**1**

Əmlakın qeydiyyatı ilə bağlı bütün xidmətlər "Əmlak Xidmətləri Məkanı"nda aparılır.

**2**

Daşınmaz əmlakın qeydiyyatı və kadastrı ilə bağlı problemlər üzrə müraciət və müvafiq olaraq onların həlli üçün hər biri ilə əlaqədar ayrılıqda, xüsusi və müstəqil mexanizmlər fəaliyyət göstərir.

**www.emdk.gov.az/index.php/en/2014-01-18-10-59-28/complaints**

**registration_complaints@emdk.gov.az**

**3**

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən **kağız çıxarış** əldə olunması prosesi ləğv olundu.

**Hüquqi əsası**:

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 6 aprel tarixli 134 nömrəli və 2018-ci il 16 oktyabr tarixli 453 nömrəli qərarları ilə "Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları"nda dəyişikliklər edilmişdir;
- "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1545-VQD nömrəli Qanunu.



# KREDİTLƏRİN ALINMASI

Mövcud reytinq: 190 ölkə arasında **22-ci yer**
"Doing Business" üzrə bal: **80.00**








# KREDİTLƏRİN ALINMASI

## HÜQUQİ NORMA İNDEKSİ (0-12)



| ƏVVƏL | | İNDİ |
|---|---|---|
| 0 | Daşınar əmlak üzərində yüklülüyün yaranması, üçüncü şəxslər üçün yüklülük barədə məlumatların əldə olunmasının açıqlığı, daşınar əmlaka tutma yönəldilməsi ilə bağlı vahid yanaşmanı əks etdirən qanunvericilik mövcuddur. **(0-1)** | 1 |
| 0 | Yüklülük hüququ gələcəkdə və ya sonradan əldə edilmiş aktivlərə tətbiq edilir və yüklülük məhsula, habelə daşınar əmlakın əvəzlənməsi halında yeni daşınar əmlaka avtomatik olaraq şamil olunur. **(0-1)** | 1 |
| 0 | Yüklülük haqqında müqavilələrdə bütün növ borc və öhdəliklərin ümumi formada təsvirinə icazə verilir; bütün növ borclar və öhdəliklər tərəflər arasında təmin oluna bilər; və yüklülük müqaviləsində əsas öhdəliyin maksimal ölçüsü göstərilə bilər. **(0-1)** | 1 |
| 0 | Borclu məhkəmə nəzarəti altında yenidən təşkil prosedurana daxil olduqda, borclulara münasibətdə qəbul edilmiş qərarların icrasının dayandırılması təminatlı kreditorlara şamil edilir. Qanun müəyyən əsaslar və müddət müəyyən etməklə təminatlı kreditorları belə dayandırmadan azad edir. **( 0-1)** | 1 |

# KREDİTLƏRİN ALINMASI

## İSLAHATIN NƏTİCƏSİ

**1**

Hüquqi norma indeksi **(0-12 bal)**

8 → 12

**2**

Kredit bürosunun əhatə dairəsi **(%)**

41,5 → 45,09

**3**

Kredit Reyestrinin əhatə dairəsi **(%)**

41,5 → 45,40

**Hüquqi əsası**:

- "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1428-VQD nömrəli Qanunu;
- "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1429-VQD nömrəli Qanunu.



# KİÇİK İNVESTORLARIN MARAQLARININ QORUNMASI

Mövcud reytinq: 190 ölkə arasında **2-ci yer**

"Doing Business" üzrə bal: **81.67**



# KİÇİK İNVESTORLARIN MARAQLARININ QORUNMASI

| | ƏVVƏL | İNDİ |
|---|---|---|
| Səhmdarlar həyata keçirilən əməliyyatlar nəticəsində vurulan zərərə görə maraqlı direktoru məsuliyyətə cəlb edə bilərlərmi? **(0-2)** | 1 | 2 |
| Səhmdarlar həyata keçirilən əməliyyatlar nəticəsində vurulan zərərə görə digər direktorları məsuliyyətə cəlb edə bilərlərmi? **(0-2)** | 1 | 2 |
| Səhmdarın müvəffəqiyyətli iddiası nəticəsində məhkəmə əməliyyatı (əqdi) ləğv edə bilərmi? **(0-2)** | 0 | 2 |
| İddiaçı konkret sənəd göstərilmədən işə dair bütün sənədləri tələb edə bilərmi? **(0-1)** | 0 | 1 |
| Məhdud məsuliyyətli cəmiyyətin aktivlərinin 51 faizi satıldığı zaman cəmiyyətin iştirakçılarının razılığı tələb olunurmu? **(0-1)** | 0 | 1 |
| Fərz olunur ki, alıcı məhdud məsuliyyətli cəmiyyətdir. Alıcının iştirakçıları arasında yaranan fikir ayrılığının həlli üzrə mexanizm olmalıdırmı? **(0-1)** | 0 | 1 |
| Məhdud məsuliyyətli cəmiyyətin 50 faiz iştirak payını alan potensial alıcı tərəfindən digər səhmdarlara tender elan edilməlidirmi? **(0-1)** | 0 | 1 |

**Hüquqi əsası**:

- "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1449-VQD nömrəli Qanunu;
- "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1450-VQD nömrəli Qanunu



# VERGİLƏRİN ÖDƏNİLMƏSİ

Mövcud reytinq: 190 ölkə arasında **28-ci yer**
"Doing Business" üzrə bal: **85.23**



# VERGİLƏRİN ÖDƏNİLMƏSİ

| | Ümumi vergi dərəcəsi | | Vaxt (İl ərzində tələb olunan saat) | | | | Bəyannamə təqdim edilməsindən sonrakı prosedur indeksi | |
|---|---|---|---|---|---|---|---|---|
| | Sosial sığorta ödənişləri | Sosial sığorta ödənişlərinin mənfəət vergisindəki xüsusi çəkisi | Sosial sığorta ödənişləri | Mənfəət vergisi | Əlavə Dəyər Vergisi | **Cəmi** | ƏDV-nin qaytarılması müddəti | Ərizənin doldurulmasına tələb olunan vaxt |
| ƏVVƏL | 22 % | 24,82 % | 65 saat | 50 saat | 44 saat | 159 saat | 27,6 həftə | 7,5 saat |
| İNDİ | 15 % | 20,29 % | 43 saat | 31 saat | 39 saat | 113 saat | 17,1 həftə | 4 saat |



# İSLAHATIN NƏTİCƏSİ

**1**

İşəgötürən tərəfindən ödənilən sosial sığorta ödənişləri 22 faizdən 15 faizə endirilmişdir.

**2**

ƏDV-nin qaytarılması ilə bağlı vergi orqanlarına təqdim olunmalı ərizə elektronlaşdırılmışdır.

**3**

Vergi ödəyiciləri üçün əvəzləşdirilən vergi məbləğinin hesabat dövrü ərzində hesablanmış vergi məbləğindən artıq olan hissəsi vergi ödəyicisinin vergi və gömrük orqanlarına elektron formada ərizəni verdiyi vaxtdan 4 aydan gec olmayaraq qaytarılacaqdır.

**Hüquqi əsası**:

- "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli Qanunu;
- "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1360-VQD nömrəli Qanunu.



# SƏRHƏDDƏ TİCARƏT

Mövcud reytinq: 190 ölkə arasında **84-cü yer**

“Doing Business” üzrə bal: **77.04**

# SƏRHƏDDƏ TİCARƏT

"Xarici ticarət iştirakçılarının **"Yaşıl dəhliz" buraxılış sistemi**ndən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası **Qaydası** təsdiq edilmişdir

## "YAŞIL DƏHLİZ" BURAXILIŞ SİSTEMİNDƏN DAİMİ İSTİFADƏ HÜQUQUNUN ƏLDƏ EDİLMƏSİ ÜZRƏ TƏLƏBLƏR

| | İdxal əməliyyatlarının həyata keçirilməsi sahəsində **son 1 (bir) il ərzində təcrübənin olması** | Elektron **gömrük xidmətləri**ndən istifadə bacarığı | Daşınmaları **beynəlxalq daşınma standartları**na cavab verən nəqliyyat vasitələrindən istifadə etmək | Müəyyən edilmiş tələblərə cavab verən malların saxlancı üçün nəzərdə tutulan **anbarlardan istifadə etmək** | Qaçaqmalçılıq, gömrük ödənişlərinin ödənilməsindən yayınma ilə bağlı cinayətlərə görə **məhkumluğun olmaması**, o cümlədən məhkumluğun ödənilmiş və ya götürülmüş olması |
|---|---|---|---|---|---|
| **İDXAL** | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| **İXRAC** | ✗ | ✓ | ✓ | ✗ | ✓ |

## "YAŞIL DƏHLİZ" BURAXILIŞ SİSTEMİNİN İSTİFADƏÇİLƏRİNƏ VERİLƏN ÜSTÜNLÜKLƏR

### İdxal zamanı

İdxal olunan malların şəxslərin **anbarlarına birbaşa aparılması**.

Gömrük bəyannaməsi təqdim olunduğu təqdirdə gömrük orqanlarının razılığı əsasında malların daşındığı nəqliyyat vasitələrindən müstəqil qaydada **gömrük eyniləşdirmə vasitələri**nin (plombların və s.) çıxarılması və malların boşaldılması.

### İxrac zamanı

Gömrük orqanına getmədən ixrac olunan elektron gömrük bəyannaməsini təqdim etməklə, **malları** bəyan etdiyi gömrük sərhəd buraxılış məntəqəsinə **birbaşa göndərməsi**.

Gömrük orqanlarının tanıdığı **eyniləşdirmə vasitələri**nin (plomblar, möhürlər, ştamplar və sair) **müstəqil tətbiq edilməsi.**

## Digital Trade HUB
of Azerbaijan WWW.DTH.AZEXPORT.AZ

İxrac üçün lazımi sənədləri cəmi **bir düymə** ilə əldə edin




Bütün ödənişləri **e-pul kisəsi** vasitəsi ilə edin

# İSLAHATIN NƏTİCƏSİ

1

Xarici ticarət iştirakçıları üçün daha əlverişli biznes mühitinin formalaşdırılması.

2

Gömrük nəzarəti və rəsmiləşdirilməsinin daha operativ və şəffaf şəkildə tətbiq edilməsi ilə fiziki gömrük yoxlamalarını minimuma endirmək.

3

Ölkənin ixrac potensialını gücləndirmək.

4

Biznesin dövlət tənzimləmə mexanizmlərinin effektivliyi və məmur-sahibkar münasibətlərini inkişaf etdirmək.

5

Mövcud resurslardan daha optimal istifadəni təmin etmək.

**Hüquqi əsası**:

- **Hüquqi əsası**: "Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli 427 nömrəli Fərmanı;
- Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 may tarixli 920 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli Fərmanı.



# MÜQAVİLƏLƏRİN İCRASININ TƏMİN EDİLMƏSİ

Mövcud reytinq: 190 ölkə arasında **40-ci yer**

“Doing Business” üzrə bal: **67.51**

# MÜQAVİLƏLƏRİN İCRASININ TƏMİN EDİLMƏSİ

Məhkəmə və proses iştirakçıları tərəfindən **ərizə**, **şikayət** və **digər sənədlər**in elektron formada tərtib edilməsi, göndərilməsi, qəbulu, sənədlərin elektron qeydiyyatı və elektron dövriyyəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Azərbaycan Respublikasının Ali Məhkəməsi ilə birlikdə müəyyən etdiyi **"Elektron məhkəmə"** informasiya sistemindən istifadə qaydalarına uyğun olaraq həyata keçirilir və bu sənədlərin digər qaydada verilməsi tələb oluna bilməz.




**"Elektron məhkəmə"** informasiya sistemində qeydiyyatdan keçmək tələb olunur




**"Elektron kabinet"** yaradılır



Sənədlər **elektron şəkildə yerləşdirilir** və iştirakçıya bu barədə məlumat elektron qaydada çatdırılır

1 "Şəxsi kabinetə giriş" adlı bölməyə keçmək tələb olunur

2 Şəxsiyyət vəsiqəsi, ASAN İmza və "e-İmza" ilə qeydiyyat aparılır

3 Sistem tərəfindən verilən istifadəçi adı və şifrə ilə sistemə daxil olub əməliyyat aparılır







- Məhkəməyə iddianın verilməsi üçün dövlət rüsumunun ödənilməsi barədə məlumat daxil edilərək təsdiqlənir.
- "Onlayn ödə" imkanı seçildikdə ödəniləsi rüsum seçilir və bank kartının **ilk 6 rəqəmi** daxil edilərək ödəniş əməliyyatları yerinə yetirilir.

**daxil olma tarixi** (məs. 19.03.2018)

**işin nömrəsi** (məs. 1(004)-12/2019)

**icraatın növü** (məs. iddia icraatı)

**işin növü** (məs. mülki iş, inzibati mübahisələrə dair iş)

**hakim**

**məhkəmənin adı** (məs. Bakı şəhəri Yasamal Rayon Məhkəməsi)

**işdə status** (məs. vəkil, müdafiəçi)

**işin baxılma vəziyyəti** (məs. iş icraatdadır)




**Elektron kabinetdə proses iştirakçısının məhkəmə işləri ilə bağlı mövcud məlumatları**

# MÜQAVİLƏLƏRİN İCRASININ TƏMİN EDİLMƏSİ

## İSLAHATIN NƏTİCƏSİ

**1**

Kiçik iddiaların meyarları və kiçik iddialara münasibətdə sadələşdirilmiş prosedur qanunvericilikdə təsbit edilmişdir.

Məhkəmə prosedurlarının tənzimlənməsi standartları daha da təkmilləşdirilmişdir.

**2**

"Mediasiya haqqında" normativ hüquqi baza yaradılmış və inzibatçılıq qaydaları qəbul edilmişdir

**3**

Vəkillərin istifadəsi üçün elektron iş idarəedilməsi sistemi üzrə hüquqi baza və inzibatçılıq daha da yaxşılaşdırılmışdır.

**4**

Şikayətlərə dair məhkəmə prosesi xidmətlərinin elektron formada aparılması istiqamətində qanunvericilik təkmilləşdirilmişdir.

**Hüquqi əsası**:

- "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1436-VQD nömrəli Qanunu;
- "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1437-VQD nömrəli Qanunu;
- "Mediasiya haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1555-VQ nömrəli Qanunu.



# MÜFLİSLƏŞMƏNİN HƏLLİ

Mövcud reytinq: 190 ölkə arasında **45-ci yer**

"Doing Business" üzrə bal: **63.79**



# MÜFLİSLƏŞMƏNİN HƏLLİ







| | ƏVVƏL | İNDİ |
|---|---|---|
| Sağlamlaşdırma planına səs vermək məqsədilə kreditorların qruplara bölünməsi, hər qrupun ayrı-ayrılıqda səs verməsi və eyni qrupun bütün üzvlərinə münasibətdə bərabər yanaşmanın olması qanunvericilikdə nəzərdə tutulurmu? **(0-1)** | 0 | 1 |

# MÜFLİSLƏŞMƏNİN HƏLLİ

## İSLAHATIN NƏTİCƏSİ

**1**

İpoteka predmetinin açıq bazarda (hərracda) satılması ilə yanaşı, elektron qaydada keçirilən hərracda da satılması qanunvericilikdə təsbit edilmişdir.

**2**

İpoteka predmetinə tutmanın yönəldilməsi hüququ ilə bağlı ipoteka üzrə öhdəliyin icrasının ümumi deyil, konkret müddətə (60 təqvim günü və daha çox) gecikdirilməsi qanunvericilikdə təsbit edilmişdir.

**3**

İpoteka predmetinə tutmanın yönəldilməsi üzrə mexanizmlər konkretləşdirilmiş və qeyri-müəyyənliklər tam aradan qaldırılmışdır.

**4**

Təkrar hərracın keçirilməsi üzrə gözlənilməli müddət həddi 45 gündən 20 günə azaldılmaqla, bu sahədə operativlik və səmərəlilik artırılmışdır.

**Hüquqi əsası**:

- "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1445-VQD nömrəli Qanunu, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1438-VQD nömrəli Qanunu;
- "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1439-VQD nömrəli Qanunu;
- "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1440-VQD nömrəli Qanunu.

AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ



# DÖVLƏT SATINALMALARI



# DÖVLƏT SATINALMALARI SAHƏSİNDƏ APARILAN İSLAHATLAR

ƏVVƏL | İNDİ

## Dövlət satınalmalarının planlaşdırılması

**İndi:**

Satınalan təşkilat satınalma planını hazırlayaraq təsdiq edir və dövlət satınalmalarının vahid internet portalında **(www.etender.gov.az)** yerləşdirir.

## Satınalan təşkilat tərəfindən tenderin elan olunması və tender təklifinin qəbul olunması

**Əvvəl:**

Açıq tenderin keçirilməsi barədə elan tender zərflərinin açılması günündən azı **30 bank günü** əvvəl rəsmi mətbuatda və internet saytında yerləşdirilir;

Tender üzrə məlumat mübadiləsi (sorğuların, müraciət, şikayət və s.) **kağız daşıyıcısında** aparılır;

Tender təklifi **kağız daşıyıcıları** formasında təqdim olunur;

Satınalan təşkilat tender təklifinin təminatını tender təklifinin ümumi qiymətinin **1–5 faizinədək** məbləğdə müəyyənləşdirir.






**İndi:**




Tender elan təkliflərinin qiymətləndiriləcəyi gündən ən az **20 bank günü** əvvəl vahid internet portalı vasitəsilə dərc olunur;

Qeydiyyatdan keçən hər bir malgöndərənə (podratçıya) dövlət satınalmalarının **vahid internet portalı vasitəsilə bu barədə real vaxt rejimində** təsdiq bildirişi göndərilir;

Satınalan təşkilat ilə malgöndərən (podratçı) arasında qarşılıqlı məlumat mübadiləsi və sənədlərin təqdim olunması **vahid internet portalı vasitəsilə** aparılır;

Tender üzrə iştirak haqqı və tender təklifi **vahid internet portalı vasitəsilə** təqdim olunur;

Tender komissiyasının iclasları **virtual şəkildə** təşkil edilir;

Satınalan təşkilat tender təklifinin təminatını tender təklifinin ümumi **qiymətinin 1 faizinədək** məbləğdə müəyyən edir və həmin təminatı vahid internet portalı vasitəsilə qəbul edə bilər.




## Tender üzrə qalibin müəyyən olunması və müqavilənin bağlanılması

**Əvvəl:**

Tender təkliflərinin açılması müddəti tenderin əsas **şərtlər toplusunda** müəyyən olunur;

Tenderin qalibi ilə tenderin satınalma müqaviləsi **əsas şərtlər toplusunda göstərilmiş müddət ərzində kağız daşıyıcıda** imzalanır.

**İndi:**

**Vahid internet portalı** təklifləri qiymət ardıcıllığına uyğun olaraq avtomatik müəyyən edir və qərar qəbul edilməsi üçün elektron qaydada tender komissiyasına göndərir;

Tender komissiyası **1 (bir) bank günü** ərzində qərar qəbul edir və qərarı həmin gün vahid internet portalında yerləşdirir;

Satınalma müqaviləsi tenderin qalibi ilə vahid internet portalı vasitəsilə **elektron qaydada** bağlanır.

## Malgöndərənlərin şikayətlərinə baxılma

**Əvvəl:**

Satınalan təşkilata və satınalma üzrə dövlət siyasətini həyata keçirən orqana malgöndərənlər tərəfindən olunan şikayətə **20 bank günü** müddətində baxılır;

Qərar **3 bank günü** keçənədək kağız daşıyıcısında təqdim olunur.

**İndi:**

Satınalan təşkilata və satınalma üzrə dövlət siyasətini həyata keçirən dövlət orqanına malgöndərənlər tərəfindən edilən şikayətlərə **10 bank günü** müddətində baxılır;

Qərar **1 bank günü** keçənədək vahid internet portalı vasitəsilə təqdim olunur.

# DÖVLƏT SATINALMALARI SAHƏSİNDƏ APARILAN İSLAHATLAR

| | Günlərin sayı | Xərc |
|---|---|---|
| ƏVVƏL | 53 | 1-5 % |
| İNDİ | 31 | 1%-DƏK |

VAHİD İNTERNET PORTALI

## İSLAHATIN NƏTİCƏSİ

1. Dövlət satınalmalarının vahid internet portalının və elektron satınalma institutunun yaradılması.

2. Elektron satınalma ilə bağlı bütün prosedurların və qarşılıqlı informasiya mübadiləsinin vahid internet portal vasitəsilə onlayn həyata keçirilməsi.

3. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin dövlət satınalmalarında iştirakının stimullaşdırılması.

4. Tender təklifinin təminatının 1-5% səviyyəsindən 1% səviyyəsinə endirilməsi.

5. Satınalan təşkilatla qalib malgöndərən arasında müqavilənin vahid internet portalında elektron qaydada bağlanması.

6. Dövlət satınalmaları üzrə şəffaflığın və səmərəliliyin artırılması, şikayətlərə baxılması müddətinin 20 bank günündən 10 bank gününə və qərar elektron qaydada təqdim olunmaqla müddətin 3 bank günündən 1 bank gününədək azaldılması.

**Hüquqi əsası**:

- Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1433-VQD nömrəli Qanunu ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər.



/iqtisadiislahat

iqtisadiislahat.org
azexport.az
enterpriseazerbaijan.com
ereforms.org
ecoreform.az

Tel.: (+99412) 521 33 18
info@ereforms.org
16 Landau street, Yasamal district, Baku
AZ 1073